

## SABİR ZAMANLI

### *Bu dar dünya dörd divardı*

Arzularım kövrək, çaşqın,
Ümid gödək, güman dardı.
Hara getsin xəyallarım,
Bu dar dünya dörd divardı.

Nə sağı var, nə də solu,
Yaranmışam yerin qulu.
Necə tapım çıxış yolu,
Bu dar dünya dörd divardı.

Hara getsəm dönüşü düz,
Yoxuşu düz, enişi düz.
Bəxtim mənə deyir ki, döz,
Bu dar dünya dörd divardı.

Hardan gəldim bura, hardan?!
Çıxammıram bu gen dardan.
Nəyə lazım qala, zindan,
Bu dar dünya dörd divardı.

### *Dünyanın da qarğışı var*

Dünya sevinir, qəmlənir,
Dünyanın da göz yaşı var.
Dünyaya qarğış etməyin,
Dünyanın da qarğışı var.

Bir atılmış tordu dünya,
Yaxşı baxın, gordu dünya.
Düşünməyin kordu dünya,
Dünyanın da baxışı var.

Sən bu dərddən qopammazsan,
Yolun, izin tapammazsan.
Vallah, burdan çıxammazsan,
Dünyanın tək girişi var.

### *Payız vergül, qış nöqtədi*

Hara qaçaq yer üzündən,
Dünya özü dərd üstədi.
İlin ömrünə yazılan,
Payız vergül, qış nöqtədi.

Torpaq altda batan ömrə,
Yaddaşlarda yatan ömrə,
Son mənzilə çatan ömrə,
Məzar üstə daş nöqtədi.

Dünya tanrının əsəri,
Şifrəlidi hər bir sirri,
Barmaqda tale möhürü,
Bədən imza, baş nöqtədi.

### *Xəyalımız görüşsün*

Ömürümdən, günümdən,
Barı, sən ayrı düşdün.
Gözlərim yol çəkir, qoy -
Xəyalımiz görüşsün.

Gedirlər üzü sənə,
Xəyallarım barışla.
Məndən incisən belə,
Xəyalımı qarşıla.

İnada güc verdinsə,
Bəs, qəlbinin ahı nə?!
Biz incidik, biz küsdük,
Sevginin günahı nə?!

## *Ağlına gün dəyməyib*

Boyu uca, baxışı lal,
Elə bil heykəldi bu.
Ağlına gün dəyməyib,
Dindirirsən kaldı bu.

Ədəbsiz gülüşü var,
Əcaib baxışı var,
Ədabaz yerışı var,
Guya, Rüstəmzaldı bu.

Bir ahdı zardan uzaq,
Abırdan, ardan uzaq,
Beynində əsir sazaq,
Özündən bihaldı bu.

Hər nə dedi, lağ oldu,
Yalanları ağ oldu,
Kəlməsi qınaq oldu,
Gör nə günə qaldı bu.

Sabir, bunda ar olmaz,
Heç bir dərdə bar olmaz,
Kimsəyə də yar olmaz,
Ona görə duldu bu.

## *Bədən başdan asılıb*

İpi teldən də nazik,
Tale yaşdan asılıb.
Baş bədənə yük deyil,
Bədən başdan asılıb.

Mənzilin yönü yoxuş,
Nə tin var, nə də dönüş.
İçim bahar, çölüm qış,
Qar da saçdan asılıb.

Ömrümün yarısında,
Bəxtimin qarasında,
Alınla göz arasında,
Ölüm qaşdan asılıb.

## *Günəş batıb dənizə*

Bu ki bir möcüzədi,
Günəş batıb dənizə.
Bəlkə intihat edir,
Özün atıb dənizə .

Yox, deyəsən dəryada,
Günəş üzünü yuyur.
Kül basıb, rəngi solub,
Yəqin közünü yuyur.

Günəşdə qismətə bir bax,
Közü özünü yandırır,
Dünyanı isitmək üçün,
Özü özünü yandırır.

## *Yaltaqlığı yaşadan*

Əzəl gündən də olub,
Kor quyuya daş atan.
Min üzlü yaltaqlardı,
Yaltaqlığı yaşadan.

Bir baxın bu yaltaqlar,
Dünyaya yaltaqlanmir.
Çünki, dünya heç zaman,
Yaltaqlara aldanmır.

Heyif torpaq altında,
Mərdlə namərd bir yatır.
Bu rəzalət içində,
Dünya günaha batır.

## Kim dəyib çayın xətrinə

Duman dağlara çəkilir,
Baharın, yayın xətrinə.
Boynu bükük lal dayanıb,
Kim dəyib ayın xətrinə?!

Bu dünyanın qışına bax
O üşüyən daşına bax,
Üzündə göz yaşına bax,
Kim dəyib göyün xətrinə?!

Gör necə coşub, sellənib,
Suyu bulanıb lillənib,
Ağzı yaman köpüklənib,
Kim dəyib çayın xətrinə?!

## Ad günün mübarək, dünya

Qapanmısan öz - özünə,
De, sirrini bilək, dünya.
Unudulub yaddan çıxan,
Ad günün mübarək, dünya.

Əsirlərdən keçib gələn,
Ürəklərə axıb dolan,
Qocaldıqca cavan qalan
Ad günün mübarək, dünya.

Varmı könül verən sənə?
Ər deyənin, ərən sənə?
Qucaqlayıb deyən sənə,
Ad günün mübarək, dünya?!

Elə bil sirlər də deyir,
İllər, əsirlər də deyir,
Gələn fəsillər də deyir,
Ad günün mübarək, dünya.

## Günahından incimə, qız

İçindəki bu nə ündü,
Baxışında kədər dindi,
Bu ah sənin öz ahındı,
Gəl ahından incimə, qız,

Dərd sənindi, qınaq sənin,
Ağır, yüngül sınaq sənin,
Qınadığın günah sənin,
Günahından incimə, qız.

Yolun, izin bilmədiyin,
Qapısından girmədiyin,
Üzün belə görmədiyin,
Sabahından incimə, qız.

Sənə qalan həsrətindi,
Qəlbindəki xiffətindi,
O bəxt sənin öz bəxtindi.
Döz, bəxtindən incimə, qız.

